# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 70** **Bakı şəhəri, 7 mart 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Dövlət informasiya sistemlərinin və ehtiyatlarının "Hökumət buludu"na Keçid Planı"nın təsdiq edilməsi və "Hökumət buludu" ilə bağlı bəzi tədbirlər haqqında" 2020-ci il 29 oktyabr tarixli 428 nömrəli Qərarında dəyişiklik edilməsi və "Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun xərclər smetası, ştat cədvəli haqqında" 2010-cu il 20 aprel tarixli 70 nömrəli Qərarının ləğv edilməsi barədə***

"Azərbaycan Elm Fondu" publik hüquqi şəxsin yaradılması və "Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 19 fevral tarixli 223 nömrəli Fərmanının ləğv edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 15 oktyabr tarixli 1855 nömrəli Fərmanının 7.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 oktyabr tarixli 428 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 10, maddə 1316; 2021, № 2, maddə 203, № 4, maddələr 416, 418, № 9, maddə 1064, № 12, maddə 1510; 2022, № 4, maddə 381, № 6, maddə 685; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 15 noyabr tarixli 414 nömrəli, 20 dekabr tarixli 446 nömrəli və 21 dekabr tarixli 448 nömrəli qərarları) ilə təsdiq edilmiş "Dövlət informasiya sistemlərinin və ehtiyatlarının "Hökumət buludu"na Keçid Planı"nın 6-cı hissəsinin 75-ci sətrinin "Dövlət qurumunun adı" sütununda "Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu" sözləri "Azərbaycan Elm Fondu" publik hüquqi şəxs" sözləri ilə əvəz edilsin.

2. "Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun xərclər smetası, ştat cədvəli haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 20 aprel tarixli 70 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 4, maddə 360, № 11, maddə 1033) ləğv edilsin.

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının**
**Baş naziri**

Xalq qəzeti .- 2023.- 11 mart.- S.10.